**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR

№ 155 (2003) 12 oktyabr 2019-cu il

# Xurşidbanu Natavan həyatı və yaradıcılığı fonunda

**(əvvəli ötən sayımızda)**

**Eyni zamanda Zakirin Natəvana yazdığı şeirin təsiri altına düşdüyünü də etiraf edir:**

**O qafiyən mənə çox etdi əsər,**
**Qalmadı könlümdə ondan bir xəbər.**
**Növcavandır, təkdir, izədi-davər**
**Eyləsin ömründə onu kamgar.**

Belə bir gözəl xanımın rənginin qəmdən solmasını, yanının uşaqsız olmasını rəva bilməyən və Tanrıdan ona övlad diləyən M. F. Axundov vaxtında gəlib Natəvanı yoluxmadığı üçün " özünü də günahkar" hesab edir, Zakirə yazdığı məktubu bu sözlərlə bitirir:

knyaz Xasay xan Usmiyev Andreyovo kəndində doğulmuş (yeri gəlmişkən qeyd edim ki, internet məlumatlarının ruscasında Xasay xan İsmiyevin 1808-ci ildə Qumuq vilayətinin Köhnə Aksay kəndində, azərbaycancasında isə 1823-cü ildə Xasavyurdun Yaxsay kəndində doğulduğu yazılmışdır-V.As.), 35 yaşında, yaraşıqlı və məğrur bir kişi idi. Fransızca əsil Parisli kimi danışırdı". Çox qəribədir ki, xatırladığımız hadisədən 149 il sonra -2007-ci il fevralın əvvəllərində Fransa Respublikası Prezidenti Jak Şirak orada rəsmi səfərdə olan Azərbaycan nümayəndələrinə A.Düma Perin " Qafqaza səyahət" əsərindəki təsvirləri hörmət və ehtiramla xatırlamışdır. Xatırlanan o tarixi görüşdə A.Düma müşdür. Ailə narazılıqları nəticəsində Natəvanın ondan boşandığını da deyirlər. İki ildən sonra -1866-cı ildə X. İsmiyev Voronejdə intihar edir. Bu zaman onun 43 yaşı var idi. Bir bu qədər sıxıntı və narahatçılıq şəraitində Natəvan xanlıqda abadlıq və maarif işlərinə rəvac verir. Bu barədə məlumat verən Yaşar Qarayev " Şuşanın xırda əsnafından olan Seyid Hüseynlə təkrar nigahdan (1869) Natəvanın ikinci oğlu Mirabbas dünyaya gəlir" (Bax.Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. 740 s.Bakı, "Elm", 2002. Səh. 212) şəklində öz fikrini ifadə edir. Lakin burada " Seyid Hüseynlə təkrar nigah" ifadəsi " sanki o nə vaxtsa bir dəfə də Seyid Hüseynlə nigahda olmuşdur" mənasın-

təşəbbüsü ilə "Məclisi-fəramuşan" ("Unudulmuşların məclisi") və ya "Məclisi-xamuşan" ("Dinməzlərin məclisi") adı ilə ikinci ədəbi-məclis kimi meydana gələn ədəbi-məclisinin bəzi üzvləri Xurşidbanu Natəvan və Ağaseyid Hüseyn icdivacını yaxşı qarşılamadılar və ona qarşı çıxdılar, hətta Natəvana qarşı həcvlər yazmaqdan da çəkinmədilər. X.Natəvan şəxsiyyətinə hörmətsizcəsinə yanaşanların sırasında "Məclisi-üns"dən Mirzə Rəhim Fənanın, "Məclisi-fəramuşan"dan isə Abdulla bəy Asinin olması həm Qarabağın özündə, həm də digər bölgələrdə qədirbilməzlik və üzübozluq kimi qiymətləndirildi. Ona görə ki, Mirzə Rəhim Fənanın (1841, Şuşa-1931, 11 fevral Bakı. Bu-

**Belə pəriruyin, heç səni tari,**
**Rəvadırmı qəmdən sola üzarı?**
**Həm xələfdən xali ola kənarı?**
**Olsun ona mövlam yavərü qəmxar.**

**Mənim də var gərçi bir az günahım,**
**Sən get hüzuruna, ol üzrxahım.**
**Söylə ki, ey şahım, ey qibləgahım,**
**İncimə, gər etdim şikayət izhar.**

Bəlkə də, Tanrıya yaxın adamların xeyir-duaları sayəsində ərə getdiyindən 5 il sonra - 1855-ci ildə X.Natəvanın bir oğlu olur. Torpağı sanı yaşasın deyə uşağa babası Mehdiqulu xanın adını qoyurlar. Aradan bir il keçir- 1856-cı ildə X.Natəvanın daha bir qız övladı da dünyaya gəlir, adını Fatmabikə (Xanbikə) qoyurlar. Xanbikə bəyim Naxçıvan xanlarından İsmayıl xanın oğlu Aman xana ərə verilmişdir, deyilənlərə görə Xanbikə bəyim də şair imiş. Onun şeirləri sadə Azərbaycan dilində olmuşdur. Natəvanın oğlu Mehdiqulu xan "Vəfa" təxəllüsü ilə şeirlər yazırmış. Təhsilini Şuşada və Tiflisdə almış, Tiflisdə və Şimali Qafqazda xidmət etmiş, general rütbəsinə qədər yüksəlmiş Mehdiqulu xan Vəfanın bəzi mənbələrdə 1856-cı ildə doğulduğu və 1900-cü ildə vəfat etdiyi göstərilir.

1858-ci ildə fransız yazıçısı və səyyahı Aleksandr Düma Perin Qafqaz səyahəti ərəfəsində X.Natəvanın həyatında daha bir tarixi hadisə baş verir. Yüksək mədəniyyətli kübar Şərq xanımı kimi A. Düma ilə görüşən X.Natəvan Aleksandr Düma Perdə dərin təəssüratlar yaradır. Əlbəttə ki, bu görüşdə X.Natəvanın anası Bədircahan xanım, əri Xasay xan, oğlu Mehdiqulu, qızı Xanbikə də iştirak edirdilər. Onlar hörmətli qonağı evlərinə ziyafətə dəvət etmişdilər. Necə qarşılandıqlarını təsvir edən Aleksandr Düma Per yazırdı: " Bizi sevinclə qarşıladılar. Knyaz qadınlarından biri Qarabağın son hakimi Mehdiqulu xanın arvadı, digəri qızı idi. Anasına 40, qızına 20 yaş vermək olardı. ... ataları



**Bakıda X.Natəvana ucaldılmış abidə**

Per və Xurşidbanu Natəvan şahmat oynamışlar, Natəvan qalib gəlmişdir. Sözarası deyim ki, buna şübhə ilə yanaşanlar da vardır. Aleksandr Düma Per özü ilə gətirdiyi şahmatı və bir də Napaleonun kiçik büstünü ona bağışlamışdır. Natəvanın əri Xasay xan İsmiyevə isə "Devim" markalı tapanca hədiyyə etmişdir. Bir saatdan sonra Fransız dilini çox səlis bilən Xasay xan Aleksandr Düma Perə fransızca yazılmış bir məktub, iki arxalıq, Natəvanın əli ilə toxunmuş kisəcik (bunu "muncuqlu tirmə" də adlandırırlar) bağışlamışdır. Natəvana bağışlanan şahmatın bəzi fiqurları N. Gəncəvi adına Milli Ədəbiyyat Muzeyində, bəziləri isə R. Musatafayev adına Dövlət İncəsənət Muzeyində saxlanır. Natəvana bağışlanan Napoleonun kiçik büstü isə şairənin nəticəsi Leyla xanım İsmiyeva tərəfindən Üzeyir Hacıbəyovun ev-muzeyinə verilmişdir.

Xurşudbanu Natəvanın Xasay xan İsmiyevlə olan ailə həyatı o qədər də fərəhli olmamışdır. Digər bir tərəfdən də talenin amansız sınaqlarına məruz qalan şairə 1861-ci ildə anasını itirmişdir. Xanlığı təkbaşına idarə etmək məcburiyyətində qalan Natəvanın həyatında daha bir sıxıntı baş vermişdir. 1864-cü ildə X. İsmiyev öz ailəsini atıb Dağıstana köç-

da səslənir. O biri tərəfdən əsnaf "dükançı", "dəmirçi", "misgər" və başqa sənətkarları ümumiləşdirən ad olsa da, Seyid Hüseynin hansı sənətin sənətkarı olduğunu bildirmir. Digər məlumatlar isə X.Natəvanın Seyid Hüseynlə iki dəfə nikaha girdiyini təsdiq etmir. Firidun bəy Köçərlinin məlumatı isə belədir: "Xasay xanın vəfatından sonra Xurşidbəyim Qarabağın nəcib seyidlərindən Ağaseyid Hüseynə əqdi-nikah etdirib və ondan dəxi neçə nəfər oğlan və qız övladları (Bax. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. II cild.460 s. Bakı, "Elm", 1981.Səh.153) olubdur". Hər halda, F.Köçərli daha dürüst məlumat verir.

Başqa bir mənbədə Seyid Hüseyndən X. Natəvanın Mir Möhsün, Mir Abbas və Mir Həsən adlı üç oğlunun (Bax. Azərbaycanın aşıq və şair qadınları. 188 s.Bakı, "Gənclik", 1974. Səh. 62), hətta, qızlarının da olduğu (Bax..Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. II cild.460 s. Bakı, "Elm", 1981. Səh. 153) göstərilir. Burada da böyük oğul kimi Mir Abbasın deyil, Mir Möhsümün adı çəkilir. Başqa bir yerdə isə Mir Həsənin "Mir" təxəllüsü ilə şeirlər yazdığı göstərilir. Mir Həsən 1902-ci ildə vəfat etmişdir. Ancaq məsələnin çox incə yeri belədir ki, X.Natəvanın Ağaseyid Hüseynə ərə getməsi Qarabağ əhli tərəfindən birmənalı qarşılanmamışdır. Hələ X.Natəvan ikinci dəfə ərə getməmişdən xeyli əvvəl 1864-cü ildə Mirzə Rəhim Fəna və Hacı Abbas Agəhin təşəbbüsü ilə Mirzə Əbdülqasımın mədrəsəsində təşkil edilmiş və ilk məclisləri Hacı Abbas Agəhin evində keçirilmiş "Məclisi-üns"ün 1872-ci ildə Natəvanın sarayına köçürülməsindən bir az sonra Mir Möhsün Nəvvabın (1833, Şuşa -1919, Şuşa)

nu1841-1929 -cu il tarixləri ilə göstərənlər də vardır.) atası Mirzə Məmmədbağır Mehdiqulu xan dövründən saray mirzəsi idi, sarayın mədaxil məxaric işlərinə baxırdı və Natəvanın dövründə də bu işi davam etdirirdi (Bax. Poetik məclislər. (Nəsrəddin Qarayevin tərtibində) Bakı, "Yazıçı", 1987. Səh. 121). Əlbəttə ki, Natəvan sarayının çörəyi ilə dolanan bir ailənin övladı tərəfindən Natəvana həcv yazılması çörəyə və süfrəyə hörmətsizlikdən başqa bir şey deyildi. Onu da qeyd edim ki, onu həcv etməsinə baxmayaraq, X.Natəvan 1872-ci ildə Mirzə Rəhim Fənanı vəfat etmiş atasının yerinə saray mirzəsi təyin etmişdi. O da dözülməz hal idi ki, Q. Zakirə Xındırıstan kəndini bağışlamış Mehdiqulu xanın qızı Natəvanı Q. Zakirin qız nəvəsi, Əli bəy Fuladovun oğlu Abdulla bəy Asi (1839//41-1874) də həcv etmişdi. İstər Mirzə Rəhim Fəna, istərsə də Abdulla bəy Asi olsun, onların Natəvana həcv yazmaları Şamaxı ədiblərini, xüsusilə Seyid Əzim Şirvanini hiddətləndirmişdi.

Bununla belə Asinin şeirdə və sənətdə hünər göstərdiyini dönə-dönə dilə gətirəndən sonra " bu günlərdə Şirvana bir həcvin gəldiyini, bu həcvin Asi tərəfindən Natəvana ünvanlandığını" açıqlayan S.Ə.Şirvani "seyidə ərə getməyin namussuzluq olmadığını" vurğulayaraq yazırdı:

**Tapmısız eyb bunu ol guhəri- yektadə**
**Ki, gedib seyidə, namusunu verməş badə.**
**Bu deyil eyib, təfərrük eləməz mənadə**
**Ki, bu xanzadə isə, ol biridir şahzadə**
**Həqqi kim, aləmi -mənada bu iş canə dəyər.**

(Bax.Seyid Əzim Şirvani. Əsərləri, II cild. 652 s. Bakı,
Azərbaycan SSR EA Nəşriyyatı,1969. Səh.158)

**(ardı növbəti sayımızda)**

**Vaqif Aslan**